# "HAKİMƏ AÇILAN ATƏŞ"

Yazıçı-publisist, ssenarist kimi fəaliyyət göstərən, on səkkiz kitabın müəllifi Kənan Hacının bu yaxınlarda bir kitabı ilə tanış oldum. Kitab belə adlanır: "Hakimə açılan atəş".( Bakı, "Qanun" nəşriyyatı, 2021, 208 səh.) Roman 1993-cü ildə Qarabağ savaşında şəhid olmuş hakim Məhərrəm Məmmədovun əziz xatirəsinə həsr olunmuşdur. Əsər "söyüdlər sanki sulara tilov atmışdı. Kürün hüznlü sakitliyi onun fikrini uzaqlara çəkib aparmışdı..." cümlələri ilə başlayır. Sonra müəllif qəhrəmanının xəyal aləmini, dolğun düşüncələrini, hətta bu düşüncələr aləmində "Qarabağ şikəstəsi" oxuyan balaca uşağın düşmənə nifrətinin tüğyan etdiyini də bildirir və uşaq oxuya-oxuya: "Alacağam qisasını", - deyirdi. (səh.8)

Roman Birinci Qarabağ müharibəsində şəhid olmuş, Zərdab Rayon Məhkəməsinin sədri Məhərrəm Məmmədovun həyat yolundan bəhs edir. Əsərin qəhrəmanı Məhərrəmin uşaqlıq illərindən tutmuş ta ömrünün sonuna qədər keçdiyi yolu bədii boyalarla, çox ustalıqla oxucu diqqətinə yönəltmişdir. İstər uşaqlıq, istərsə də tələbəlik illərindəki dövrü müəllif yeri gəldikcə vermiş, onun necə bir xarakterə malik olduğunu əks etdirə bilmişdir.

Romanın əsas qəhrəmanının qəlbindəki müqəddəs vətənpərvərlik duyğularının Kənan Hacı tərəfindən emosionallıqla verilməsi, qəhrəmanın doğma torpaqlarımı- za nə qədər bağlılığından xəbər verir. Əsərin ilk səhiflərindən müəllif qəhrəmanı- nın taleyi və şəxsiyyəti ilə oxucunu maraqlandırmağa nail olur. Məhərrəmin vətənpərvərliyi, sadəliyi, ata-anaya məhəbbəti, yurd yerlərimizə sevgisini məharət və ustalıqla verə bilmişdir. Xarakteri həm onun işlədiyi vəzifəsində, həm də müharibə ilə bağlı ictimai münasibətində açılır. Atası Fehruz kişi ilə kiçik yaşlarından Azərbaycanımızın, demək olar ki, bir sıra ərazilərini: Cıdır düzünü, İsa bulağını, Topxana, Sultanbud meşələrini və s. yerləri gəzmişdi. Bu da onun doğma Azərbaycanımızın gözəlliyinə böyük rəğbət hissi oyatmışdır. Sanki bu gözəlliklər aləmi onun qanına, iliyinə hopmuşdur. Yaddaşı təbiətin bu ecazkar mənzərələri ilə dolğunlaşmışdır .

Müəllif vətənin təbiətinə, onun təbii gözəlliklərinə o qədər vurğundur ki, vermək istədiyi hər hansı bir hadisəni şirin, mənalı bir dillə, təbiət gözəllikləri ilə vəhdətdə diqqətə çatdırır. Yeri gəldikcə bədii təsvirin məntiqi ilə Azərbaycanın gözəl, bəhrəli torpaqlarının, ecazkar təbiətinin müqəddəsliyini məftunluqla diqqətə çatdırır və oxuculara sevdirir. Bunlarla yanaşı o, səmimi və işıqlı duyğularla qəhrəmanını vermək istədiyi məqsədinə yönəldir.

Hərtərəfli bir şəxs kimi onu həm tərbiyəçi, həm futbolçu, həm siyasətçi, həm psixoloq, həm də peşəsini yaxşı bilən bir hüquq işçisi kimi romanda verir. Hələ tələbə ikən qəlbində böyük arzuları olan bu şəxs xəyallarında müstəqil Azərbay- canımızın hüquq işçisi olacağını düşünürdü. Oxucu buna tələbə yoldaşı, sonralar Füzuli Rayon Polis Şöbəsinin rəis müavini, polkovnik Asif Məmmədovla söhbə- tində şahid olur: "- Kaş təhsilimi başa vurana qədər xalqımız azadlığına qovuşaydı. Onda müstəqil vətənimizə xidmət edərdik. Öz əlimiz, öz başımız olardı. Ruslar başımızın üstündə ağalıq etməzdi, - Məhərrəm bunu deyib dərindən köks ötürdü.

- Görərsən, bu sistem tezliklə çökəcək, - Arif qəti əminliklə danışırdı". (səh.34). Yazıçı qəhrəmanının xarici görünüşünü təsvir etmir. Demir ki, o, boylu-buxunlu, zahirən gözəldir. Çox haqlı olaraq yazır ki, həssasdır, incə ruhludur, vətənpərvər- dir. Ayrı-ayrı epizodlar vasitəsi ilə bunları oxuculara çatdırır. Qəhrəmanının xarak- teri həm də yoldaşlarına olan münasibətdə, real çətinliklərlə mübarizədə açılır.

O istər rəsmi şəxslərlə, istərsə də adi insanlarla danışığında səmimidir. Bunu oxucu onun Zərdabda bir çobanla danışığında, yaxud Zərdab Rayon Polis Şöbə- sinin rəis müavini, polkovnik Asiflə, Dövlət Yanğın Nəzarət Müfəttişliyinin rəisi Əkbər Məmmədovla, "Əkinçi" qəzetinin baş redaktoru İsaməddin Məmmədovla və başqa şəxslərlə danışığında görürük. Yeri gəldikdə haqsızlıq olduqda o, sərt üzünü də göstərir. Haqsızlığa etiraz edir. Məsələn, Ucar Rayon Partiya Komitəsi- nin birinci katibi ilə telefonda xeyli mübahisə edir. "Ucarda kolxoz briqadiri tutulmuşdu, onun işi Məhərrəm müəllimdə idi. O da işi diqqətlə araşdırmışdı, briqadirin işində cinayət əməli tapılmamışdı. Hiss etmişdir ki, onu nə üçünsə ilişdirmək istəyirlər. Ucarın rəhbəri isə briqadirin tutulmasını ciddi cəhdlə təkid edirdi.



*Süleyman ALIYEV,*
*filologiya üzrə fəlsəfə doktoru*

-Yoldaş katib, bu işdə briqadirin heç bir günahı yoxdur. Mən ona iş kəsə bilmə-rəm. Vicdanım yol verməz"- deyir. (səh. 190)

Əsərdə Qarabağ hadisələri ilə bağlı əhvalatlar da verilmişdi. Bu əhvalatlar heç də bədii tədqiqat hədəfindən kənarda qalmır. Yazıçı Azərbaycan xalqına qarşı işğalçılıq siyasəti yeridən erməni millətçilərinin və onların havadarlarının daxli aləmini və mənəvi çirkinliklərini üzə çıxarır. Əlbəttə, bu hadisələrin hər birinə əsərin əsas qəhrəmanı hakim Məhərrəm öz münasibətini bildirir. Yazıçı romanda həm də Birinci Qarabağ müharibəsindəki hadisələrin xronoloji ardıcıllığını verir. O bunları tarixi-ictimai siyasi faktlar fonunda oxuculara çatdırır. Hətta mayasını real varlıqdan alan bu romanda yazıçı müasir tariximizi bir qədər geri varaqlayıb keçmişimizin qatlarına işıq salır. O, Məhərrəmin dili ilə bildirir: "Çar Rusiyasına da, Sovet Rusiyasına da əhalisinin böyük əksəriyyəti müsəlman olan Türkiyə, İran və Azərbaycanla sərhəddə xristian dövləti tipində bir bufer zona lazım idi. Ruslar bu zonalara erməniləri köçürtdülər və bu da onunla nəticələndi ki, 1920-1923-cü illərdə əzəli Azərbaycan torpaqlarında iki yeni erməni siyasi törəməsi meydana gətirdi. Bizim Zəngəzurda erməni respublikası, Dağlıq Qarabağda da muxtar vilayət"(səh.19)

Yazıçı 1913-cü ildə Gülüstan, 1928-ci ildə Türkmənçay müqavilələrindən, 1918-ci ilin mart qırğınından, Kremldə ermənilərin Brejnevi bezdirmələrindən (onlar Qarabağı azərbaycanlılardan alıb ermənilərə verilməsi iddiasında idilər), Qorboçovu ələ almalarından, Amerikadakı erməni icmasının Raisa Qorboçovaya çox qiymətli rəsm əsərləri və XVII əsrə aid rus əlyazmaları kitabını, bundan əlavə brilyantla bəzədilmiş qolbağı hədiyyə etmələrindən danışmaqla yanaşı Sumqayıt hadisələrindən, Xocalı soyqırımından və sairdən ibarət tarxi keçmişimizi Asif və hakim Məhərrəmin dili ilə oxucusuna xatırladır. Burada fransız yazıçısı Stendalın bir fikrini xatırlatmaq yerinə düşər. O yazırdı ki, roman geniş bir yolla aparılan güzgüdür. Bəli, yuxarıda qeyd edilmiş tarixi hadisələr bu güzgüdə öz əksini tap-mışdır.

Əlbəttə, bu və bu kimi tarixi keçmişimizi xatırlatmaqla yanaşı yazıçı ana torpağın füsunkarlığını əlvanlıqla verir, həm də bu torpaqda yaşayan xalqın hansı məşəqqətlərə məruz qaldığını, hansı təzyiqlərə düçar olduğunu açmağa çalışmışdır. Bu xalqın bugünündən dününə tez-tez keçidlər edir. O, sovet Rusiyası dövründə Azərbaycan xalqının "böyük qardaş" adlandırdığı rusları zaman-zaman bu xalqı təzyiqlərə məruz qoyduğunu tarixi bir həqiqət olaraq romanda vermişdir ki, bunu da görməmək mümkün deyildir.

Romanda qəhrəmanın milli vətənpərvərlik ruhunda geniş şəkildə əks etdirilməsi yazıçının özündə vətənpərvərlik psixologiyasının güclü olması ilə sıx surətdə bağ- lıdır. O, əsərində qəhrəmanının gözəl əməllərindən, xeyirxahlığından iftixar hissi ilə yazmış, eyni zamanda cəmiyyətə ləkə olanları vətəndaşlıq qəzəbi ilə damğala- mağa çalışmışdır.

Romanda Məhərrəmin Birinci Qarabağ müharibəsi vaxtı iki cəbhədə fəaliyyət göstərdiyi verilmişdir. O həm ön cəbhədə əsgərlərlə tez-tez görüşür, yeri gəldikcə onlara dostları ilə ərzaq, paltar, silah-sursat aparır, onları döyüşə ruhlandırır. Arxa cəbhədə isə məhkəmə sistemində hüquq keşikçisi kimi fəaliyyət göstərir. Ancaq ona maneə olanlar, kölgəsini qılınclayanlar da olmuşdur. İşində, əməlində düz olan, həqiqətin tərəfində dayanan Məhərrəm əməllərində düz olmayan vəzifəli şəxsləri yeri gəldikcə sözləri ilə doğru yola çəkir, onları pislikdən uzaq olmağa səsləyir.

O, günlərin birində vəzifəli bir şəxslə Kür çayına qayıqla gəzməyə çıxır. Bir hadisənin şahidi olur. Qara bir çalağan qayığın burun tərəfində suya əyilmiş qamış topasının üstünə necə qonursa, sudan sıçrayan damcılar qayıqdakıların üz-gözünə qırma kimi dəyir. Əvvəl elə zənn edirlər ki, bu, quzğundur, ya da toğluaparan. Diqqətlə baxıb çalağan olduğunu görürlər. "Çalağan domba gözlərini vəzifəli şəxsə zilləmişdi. Bundan qorxan şəxs qayığın içində büzüşüb əl boyda olmuşdu. O, qeyri-ixtiyarı çığırdı. Quzğuna oxşar çalağanın heç tükü də tərpənmədi. Hakim Məmmədov şaqqanaq çəkib güldü:

- Ə, sən nə ağciyər adamsan?! İdarədə şirə, pələngə dönürsən, burada altını batıran uşaq kimi olmusan.

Çalağan qanadlarını gərdi, boynunu əydi, iri domba gözlərini oynatdı.

-Ömrümdə birinci dəfədir belə adamdan qorxmayan çalağana rast gəlirəm, - vəzifəli şəxs səsi titrəyə-titrəyə dedi.

...Vəzifəli şəxs fikrə daldı, dinmədi. Məmmədov fikirləşdi ki, bu danışmasa yax- şıdır, bunun mühakimələrinə qulaq asanda adamın ürəyi bulanır. İçi xıltla doludur. ...Elə bil yer üzünə insanlara pislik etmək üçün gəlib. ...Çalağan onun beynini didməyə hazır idi, amma yanındakı işıq buna maneə oldu, pırr edib uçub getdi". (səh.78-79)

Bu epizod bizə N.Gəncəvinin "Sirlər xəzinəsi" əsərindəki "Nuşirəvanla vəzirin və bayquşların söhbəti"ni xatırladır. Nuşirəvanın ədalətli olmasının səbəbi quşların dilini bilən vəzirin bayquşların söhbətini ona çatdırmasında görür. Bayquşlardan biri öz qızını o birisinin oğluna verdiyindən başlıq olaraq ondan xaraba kənd istəyəndə o, Nuşirəvanı göstərərək deyir ki, nə qədər ki Nuşirəvan sağdır sənə yüz min xaraba kənd verərəm. Bundan sonra Nuşirəvan düşünür ki, o nə qədər zülmkardır ki, onun zülmü hətta göydə uçan quşlara belə çatmışdır. Bundan sonra o, fikrə gedir, səhvini başa düşür. Ölkəni ədalətlə idarə edir. Burada isə müəllif nəhəng quşu - qara çalağanı vəzifəli şəxsin qarşısına çıxardır. Onun "domba gözləri vəzifəli şəxsə zillənmişdir" Elə bil ki onun haqsızlığı, pislik etməyi bu quşa çatmış, onu doğru, düzgün yola çəkmək üçün gözlərini ona dikərək həmin şəxsin beynini didib-parçalamağa hazır idi. Ancaq onun yanında işıq - düzlüyün tərəfində dayanan var idi. O da vəzifəli şəxsə "gərək pisliyi yadında saxlamayasan, hətta pislik yaxşılıqdan böyük olsa da, gərək yadında təkcə onu yaşatmayasan, elə olsa, yaxşılıq adlandırdığım o yenilməz işıq itər, dünyanı, insanların ürəyini qaranlıq bürüyər.

Vəzifəli şəxs fikrə getdi, dinmədi".(səh.79) O, bəlkə də, təbiət hadisəsi olan çalağanın hərəkət və sərt baxışlarından, hakin Məhərrəmin ibratamiz sözlərindən nəticə çıxararaq doğru, düzgün yol seçərək, haqq yoluna qayıtmaq üçün fikrə getmişdir. Romanda yazıçı Məhərrəmin bir hakim kimi işini kimliyindən asılı olmayaraq ədalətlə aparması, hətta dostunun adamı olduqda belə ədaləti əldən vermədiyinin oxucu şahidi olur. Bunu Ceyhunun qardaşı adam bıçaqlayanda, yaxud İsməddinin yaxın bir tanışından ötrü onun yanına xahişə gələndə görür. Hakim tərəddüd etmədən: "Sənə yox deməyə məcburəm. Çünki sən dediyin adamın maddəsi quldurluqdur. Mən onu açıb buraxa bilmərəm. Onlar cinayət törədiblər", - deyir. (səh.188)

Yazıçının daxili aləmi, mənəviyyatı zəngin olanda onun işlədiyi mövzu da dolğun olur. İnsanı, onun hisslər aləmini yazıçı bir tədqiqat obyekti kimi təxəyyülündən keçirərək bədii tədqiqat hədəfinə çevirir. İstedadlı sənətkar öz idrakının gücü ilə, həssaslıqla lazım olan faktları bədii təfəkkür süzgəcindən keçirərək oxucu diqqətinə çatdırır. Əlbəttə, bu hadisələr oxucuda qəzəb də doğura bilər, məhəbbət də.

Yazıçı romanda Məhərrəmin sevgi xatirələrini vermək üçün Bakıda - dəniz sahilində oturacaqların birində oturub dənizi seyr etdiyi vaxt onu it gəzdirən bir xanımla eyni bir oturacaqda əyləşdirir. Xanımın gözucu Məhərrəmə əda ilə baxması onu gəncliyinin sevgi çağlarına qaytarır. O çağlara ki onda orta məktəbi yenicə bitirmişdi. Qonşuları Mahmud kişinin qızı Məryəm ürəyinə od salmışdı. Məryəm də onu sevirdi. Ancaq "universitetə daxil olan il eşitdi ki, Məryəmi bir başqasına nişanlayıblar.

(Davamı 9-cu səhifədə)

# “HAKİMƏ AÇILAN ATƏŞ”

*(Əvvəli 8-ci səhifədə)*

...Məryəmin sevgisi onun varlığına hakim kəsilmişdi. Qızın vəfasızlığı ona əməllicə yer eləmişdi. Amma qız vəfasız deyildi. O , içindəki sevgini valideynlərindən də qorumağa çalışırdı. Onu başqasına nişanlayanda ürəyi qəfəsdəki quş kimi çırpınırdı. Deyə bilmədi ki, mən başqasını sevirəm. Sevgini həyasına qurban vermişdi.(səh. 142). Yazıçı yaratdığı hər bir surətin özəlliklərini mükəmməl verir. Onu başqalarından fərqləndirir. Azərbaycan qızlarına məxsus olan abır, həya Məryəmdə özünü büruzə verir. Elə abır, həyasına qısıldığından başqasını sevdiyini deyə bilmir. Bu mənə elə gəlir ki, onun xarakterində olan müəyyən zəifliklə bağlı idi.

Məhərrəmin ilk sevgi taleyi bir növ it gəzdirən xanımın (Nüşabənin - S.A.) sevgi taleyinə bənzəyir. Bunu oxucu Nüşabə ilə Məhərrəmin söhbətindən öyrənir. Çünki həyatının sirli və qəmli dünyasını yaşayan Nüşabə ötən günlərini geri vərəqləyib qəlbinin kövrək duyğularını həzin bir vəziyyətdə Məhərrəmə açır. Məhərrəmin ilk sevdiyi qız yuxarıda deyildiyi kimi başqasına nişanlanıb, Nüşabə- nin sevgilisi isə dəfələrlə ona sevgi məktubları yazmasına baxmayaraq başqası ilə ailə qurur. Hər ikisinin ilk sevgisi uğursuz alınır.

Nüşabə xanım bildirir ki, “sevdiyim oğlanın yazdığı məktubları atmadım. O, ailə qurdu, mən dərin depresiya yaşadım, sonra özümdən yaşca böyük olan bir insana ərə getdim. Sevmirdim onu. Tənhalıqdan qorxdum, buna görə onunla ailə qurdum” (səh.156).

Əsərdə verildiyi kimi adətən it-pişik saxlayan qadınların əksəriyyəti yaşaya bilmədiyi evlilik boşluğundan, yaxud kişi diqqətsizliyindən əziyyət çəkənlərdir. (Necə ki A.P.Çexovun “İt gəzdirən xanım” hekayəsində Anna Sergeyevna kimi - S.A.) Bəli, əsərdə it gəzdirən qadın (Nüşabə) əslində uğursuz sevgisindən əziyyət çəkən, ancaq vətənpərvər bir qadındır. Vətənin çətin günündə əyninə əsgər paltarı geyib döyüş bölgəsində düşmənlə döyüşən, çətin anda yaralı əsgərlərə tibbi yardım göstərən kifayət qədər güclü qadındır. Döyüş bölgəsində kontuziya alır. Hospitalda uzun zaman müalicə olunmasına baxmayaraq yenidən öz istəyi ilə döyüş bölgəsinə qayıdır. Elə Məhərrəm də ikinci dəfə onunla döyüş bölgəsində rastlaşır. Aldığı məlumata görə Nüşabənin tez-tez ürəktutması olur. Ona görə də Məhərrəm ona məsləhət görür ki, döyüş bölgəsindən uzaqlaşsın. Hətta komandiri baş leytenant Kərimov da dəfələrlə bildirmişdir ki, Nüşabənin döyüş bölgəsinə qayıtmasına icazə verilməsin. Məhərrəmin ağıllı məsləhətləri onu döyüş bölgəsindən uzaqlaşdırır. Ancaq o, Məhərrəmin səmimiliyini unutmur. Döyüş bölgəsindən qayıtdıqdan sonra Nüşabə üçüncü dəfə Məhərrəmlə iş yerində görüşür. Müharibə dəhşətlərin- dən, yurd, vətən sevgisindən söhbət açır. Məhərrəmsə ona: “Sizi dinlədikcə öz xal- qımla qürur duyuram. Qadını bu cür düşünən millət heç vaxt məğlub ola bilməz,” - deyir.(səh.176) Nüşabə bu görüşündə Bakıdan Zərdaba onun üçün gəlmişdir ki, ağıllı məsləhət- lər verdiyi üçün Məhərrəmə təşəkkür etsin. Ancaq oxucu onu da hiss edir ki, Nüşa- bədə Məhərrəmə qarşı isti bir münasibət, səmimi bir hissin qığılcımları var. Artıq bu ovaxt idi ki, Məhərrəmin ailəsi, övladları var idi. Nüşabə ailə taleyi uğursuz olan bir qadındır.

Müəllif romanda uşaqlıqdan atasını tez itirmiş Məhərrəmin atası Fehruz kişini, mahir ovçu kimi ad çıxarmış babası Məhəmmədi, anası Səfurəni, qardaşları Ramiz, Əbil və Tofiqi, övladları Adəm və Xəyyam haqqında çox rəğbətlə söhbət açır.

Əsərdə Səfurə ana Cəbrayilin Böyük Mərcanlı kəndində Fehruz kişinin ailəsidir. Sadə bir qadındır. Oğlu Məhərrəmin ədalətli bir hakim olmağına ürəkdən inanır. Ancaq o bir ana kimi çox narahatdır. Yeri gəldikdə ona öz məsləhətlərini də verir: “Oğul, cinayət törədən də insandır, onu da ana doğub, heç kim anadan cinayətkar doğulmur, şərait, mühit onu bu yola sövq edə bilər. Heç vaxt haqqı nahaqqın ayağına vermə, ədalətli ol. Amma bir vətənə xəyanət edəni, bir namus üstə tutulanı, bir də narkotik satanı heç vaxt bağışlama. Onlar üz qarasıdır, onlara heç vaxt güzəşt etmə!”(səh.64) Səfurə ananın mənəvi təmizliyi, həqiqi insanpərvərliyi yuxarıdakı fikirlərdə aydın ifadə edilmişdir. Yazıçı onun səciyəvi cizgilərini reallıqla əks etmişdir. O, həssasdır, duyumludur. Məhərrəm orta məktəbi yenicə bitirib qonşu qızı Məryəmin eşqinə düşəndə belə onu duymuşdur. Anası ona: “Sən nə üçün fikirlisən? - sualını verəndə heç vaxtı anasından söz gizlətməyən Məhərrəm imtahana hazırlaşmaq onu yorduğundan fikirli olduğunu bildirir. Ancaq utan- caqlıq hissi həqiqəti açıb anasına deməyə imkan vermir. Ana isə gülümsəyərək on- dan aralanır. Bu gülümsəmək oğlunun utancaqlıq hissi arxasında gizlətdiyi həqiqəti ananın duyması demək idi. Belə incə detalları müəllif çox ustalıqla vermişdir.

İnsan xarakterləri rəngarəng və müxtəlif olur. Kənan Hacı da romanında yaratdığı bədii surətlərin fərdi xüsusiyyətlərini verməklə onların hansı xarakterə malik olduğunu oxucu diqqətinə çatdırır. Həm də bunlarla yanaşı Qarabağ hadisələrini verərkən şərəfsiz ermənilərə nifrətini də gizlətmir. O, bəzən tarixi həqiqəti pozub bədii həqiqətə üstünlük verərək Böyük Mərcanlı kəndinə erməniləri gətirib orada yaşatmış və onların fitnələrini vermişdir. Yazıçı romanda müəyyən yerlərin tarixi keçmişi ilə bağlı məlumatlar da verir. Məsələm, Sirvan düzü, Zərdab və Əlvənd kəndinin adı ilə bağlı faktları buna nümunə göstərmək olar.

Bədii təsvir və ifadə vasitələrindən çox məharətlə istifadə edən Kənan Hacının bu romanında müsbət cəhətlərlə yanaşı xırda qüsurlar da vardır. Əsərdə aralarında qan davası olan iki ailə uzun illərdən sonra birinin digərindən qız alması, sonra ondan intiqam almaq üçün üstünə şər atıb onun adını ləkələmək, el içində biabır etmək istəyir. İş məhkəməyə düşdükdə hakim Məmmədov əsl həqiqəti ortaya çıxa- rır. Qızın günahsız olduğunu bildirir.

Yazıçı bu vəziyyətlə əlaqədar olaraq hakimin düşüncələrini ritorik suallarla canlandırır. “...Görəsən bu adamların Allahı yoxdurmu, Allahdan qorxmurlarmı? Günahsız bir qızın həyatını məhv edərkən vicdanları heç sızlamırmı? ...Bunların övladları yoxdurmu? Sonra da düşündü ki, olmayan vicdan axı necə sızlaya bilər?! (səh.80) Yazıçı hakimin mənəvi aləmini, iç dünyasını bu suallarla açır. Hakimə böyük rəğbət hissi ilə yanaşır. Bu çox yaxşıdır. O həm də məhkəmə prosesi haqqında bildirir ki, “bəy hakimin verdiyi məntiqi suallar qarşısında büsbütün özünü itirmiş vəziyyətdə idi, dili topuq çalır, biri digərinə zidd fikirlər söyləyirdi.”(səh.81) Məncə, daha yaxşı olardı ki, hakimin bəyə verdiyi o “məntiqi suallar” və o sualların müqabilində bəyin verdiyi cavablar oxucu diqqətinə çatdırıla idi. Onda oxucu hakimin məharətini alqışlayar, bəyi isə günahlandırardı. Məhkəmə prosesində məhkumun dili topuq da çalar, özünü də itirə bilərdi. An-caq hakimin verdiyi “məntiqi suallar” oxucu diqqətinə çatdırılması gözəl olardı.




Romanda müəllifin dilindən verilmiş köhnəlmiş sözlərdən (qəbih, yığvalsız, reverans, yağır, sərpayı, ziqiymət), dialekt sözlərindən ( çınqı, gümültü, dağlov), dini sozdən (həmd-səna) də istifadə edilmişdi.Yaxşı olardı ki, müəllif istər köhnəl- miş, istər dialekt, istərsə də dini sözlərin qarşılığını işlədə idi. Əsərim 13-14-cü səhifələrində müəllifin dilindən verilmiş fikirlər, eyni ilə 203-204-cü səhifədə, 18-19-cu səhifələrdə Məhərrəmin dilindən verilmiş fikirlər romanın 86-87-ci səhifələrində eyni ilə təkrarlanmasa idi daha yaxşı olardı. Yaxud romanda müəllif yazır: ”...havadan tüstünün acı tamı gəlirdi”. (səh.14) Məncə, bu cümlədə “acı tam” ifadəsi yerinə düşməyibdir. Tüstünün tamı olmaz, tüstünün qoxusu, iyi olar. Ancaq bu qüsurlara baxmayaraq roman uğurlu alınmışdır.

Tarixin diqqətçəkən səhifələri həmişə yazarlarin nəzərlərində olmuşdur. Kənan Hacı da xalqımızın bu tarixi keçmişini ürək yanğısı ilə “Hakimə açılan atəş” romanında qələmə almışdır. O, Adəm, Xəyyam, Ulduz və Nərgiz kimi ciyərparələ- ri, Yeksarə kimi həyat yoldaşı olan, xalqına ürək yanğısı ilə xidmət edən bir hü- quqşünasın Qarabağımız uğrunda mübarizəyə atılmasını, Füzuli rayonu ərazisində onun və anasının şəhid olmasını bir yazıçı kimi oxuculara tanıdır.

Müəllif həm də xarici havadarlarına arxalanan ermənilərin Birinci Qarabağ döyüşündə qalib gəlmələrini, iyirmi səkkiz ildən sonra 44 günlük döyüşdə Azərbaycanımızın mərd, mübariz övladlarının ermənilər və onların havadarları üzərində qələbəsini də diqqətə çatdırmışdır. Bu yaradıcılıq yolunda Kənan Hacıya bir daha uğurlar arzulayıram.

*5 may 2022-ci il.*

Kredo.- 2022- ci il.- 3 avqust.- S. 9.